AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun 2014-cü ildə keçirilmiş**
**7-ci "Mobillik qrantı" müsabiqəsinin**
**(EİF-Mob-7-2014-8(23))**
**qalibi olmuş layihə üzrə**

# ELMİ-TEXNİKİ HESABAT

Layihənin nömrəsi: **EİF-Mob-7-2014-8(23)-06/02/5-M-04**

Layihənin adı: **1829-1830-cu illərdə ermənilərin Osmanlı imperiyasından Şimali Azərbaycan torpaqlarına köçürülməsi**

Müqavilənin imzalanma tarixi: **15 may 2015-ci il**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əmənova Aynur Mənsim qızı**

Layihənin yerinə yetirilmə müddəti: **30 gün**

Layihənin başlama və bitmə tarixi: **22 may 2015-ci il- 30 iyul 2015-ci il**

Qrantın məbləği: **7000 manat**

| | | |
|---|---|---|
| **1.** | *Qısamüddətli elmi təcrübənin keçirildiyi ölkə və şəhər* | Türkiyə, İstanbul |
| **2.** | *Qısamüddətli elmi təcrübənin keçirildiyi təşkilatın və ya onun struktur bölməsinin tam rəsmi adı* | Türkiye Cumhuriyeti Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı |
| **3.** | *Təcrübəkeçmənin baş tutduğu* | Uğur Ünal |

| | | |
|---|---|---|
| | *təşkilat rəhbərinin adı* | |
| 4. | *Təcrübəkeçmənin baş tutduğu təşkilatda təcrübəkeçməyə məsul şəxsin adı* | Uğur Ünal |
| 5. | *Layihənin icra müddəti (dəqiq gediş-gəliş vaxtı dəqiq göstərilməli)* | 14.06.2015-13.07.2015 |
| | | Rusiya imperiyası hələ XVIII əsrin əvvəllərindən başlayaraq Cənubi Qafqazı bu diyarın ən qədim yerli əhalisi olan Azərbaycan türklərindən, bütövlükdə türk-müsəlman əhalidən təmizləyib bu torpaqlara erməniləri köçürmək, Osmanlı imperiyasına və Səfəvi dövlətinə qarşı gələcək işğalları həyata keçirmək üçün Azərbaycan torpaqlarında «*etibarlı xristian istinadgahına*» çevriləcək oyuncaq erməni dövləti yaratmaq siyasəti yürütməyə başladı. Ermənilərin kütləvi şəkildə Osmanlı imperiyasından Şimali Azərbaycan torpaqlarına köçürülməsi məhz bu siyasətin davamı və tərkib hissəsi idi.<br>1826-1828-ci illər Rusiya-İran müharibəsində qələbə qazanan Rusiya imperiyası həmin ilin iyununda general Paskeviçin komandanlığı altında Şərqi Anadoluya daxil oldu. 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsinin nəticəsində Şərqi Anadolu Rusiya imperiyasının qoşunları tərəfindən tamamilə işğal edildi.<br>1829-cu ilin avqustunda Rusiya ordusu Balkan cəbhəsindən İstanbula yaxınlaşdıqda II Sultan Mahmud Rusiyaya barışıq təklif etdi və sentyabrın 2-də Ədirnə müqaviləsi imzalandı. Yeni təyin olunan Rusiya-Osmanlı sərhədlərinə görə Axalkələk qalası və Ahıska şəhəri Rusiyaya ilhaq olundu, müharibə zamanı ruslar tərəfindən zəbt edilmş Türkiyə ermənilərini də yenicə işğal edilmiş Şimali Azərbaycan torpaqlarına köçürmək və bununla da Türkiyə ilə sərhəd boyu ərazilərdə də ermənilərin say üstünlüyünü təmin etmək qərarına gəldi. Bu məqsədlə də 1829-cu il oktyabrın 10-da Paskeviç imperator I Nikolaya raport yazıb Osmanlı imperiyasının Rusiya dövləti ilə sərhədində yerləşən bölgələrindən (Şərqi Anadolu) ermənilərin kütləvi şəkildə Cənubi Qafqazın Osmanlı dövləti ilə sərhəddə müsəlman əhalisi |

yaşayan bölgələrinə (işğal olunmuş Azərbaycan xanlıqları İrəvan, Naxçıvan və Qarabağ bölgələri nəzərdə tutulurdu) yerləşdirilməsinə icazə istədi. Rusiya imperiyası Türkmənçay müqaviləsinə (1828) əsasən İran ərazisində yaşayan erməniləri köçürdüyü kimi, Ədirnə müqaviləsinə (1829) əsasən Türkiyə ermənilərini də yenicə işğal edilmiş Şimali Azərbaycan torpaqlarına köçürmək və bununla da Osmanlı imperiyası ilə sərhəd boyu ərazilərdə ermənilərin say üstünlüyünü təmin etmək qərarına gəldi. Ədirnə müqaviləsinin 13-cü maddəsinə əsasən, Türkiyənin işğal olunmuş ərazilərindəki ermənilərə 18 ay müddətində daşınan əmlakları ilə birlikdə Rusiyanın təbəəliyinə keçmək hüququ verildi.

İran və Türkiyə sərhədlərində xristian bufer dövləti yaratmaq niyyətində olan Rusiya erməniləri başlıca olaraq Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazilərinə, habelə digər münbit torpaqlara köçürdü.

Ədirnə müqaviləsi Rusiya və Osmanlı imperiyaları arasında bağlandığı üçün İstanbul şəhərində yerləşən Başbakanlıq Osmanlı Arxivinin (BOA) müxtəlif fondlarında 1829-1830-cu illərdə ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi ilə bağlı sənədlər qorunub saxlanılır. Qeyd olunan dövrdə əsasən Rusiya sərhədlərinə yaxın bölgələrin – Qars, Ərzurum, Trabzon, Muş, Bayburt, Ələşgird və s. sərhəd valilərinin mərkəzə göndərdikləri məktubların və digər rəsmi sənədlərin aşkar edilməsi və tədqiqata cəlb olunması bu gün erməniləri Azərbaycan xalqına qarşı saxta torpaq iddialarının tarixi gerçəkliyi əks etdirmədiyini sübuta yetirmək üçün çox vacibdir

Başbakanlıq Osmanlı arxivində qorunub saxlanılan sənədlərin tədqiqata cəlb edilməsi 1829-1830-cu illərdə Rusiya imperiyası tərəfindən ermənilərin Osmanlı imperiyasından Şimali Azərbaycan torpaqlarına köçürülməsi, burada məskunlaşdırılması siyasətinin real mənzərəsini bugünkü və gələcək nəsillərə çatdırmaq üçün misilsiz əhəmiyyətə malikdir. Çünki xalqımızın başına gətirilən çoxsaylı bəlaların kökü məhz bu tarixdən başlamışdır.

| | | |
|---|---|---|
| 6. | *Təcrübəkeçmədən əldə edilən elmi nəticələr, onların yenilik dərəcəsi, təcrübəkeçmənin elmi və praktiki əhəmiyyəti* | Bu siyasət bu gün də davam etdirilir. Böyük güc mərkəzlərindən dəstək alan ermənilər işğal etdikləri Azərbaycan ərazisində – Qarabağda ikinci bir erməni dövləti yaratmağa çalışırlar. Hətta Böyük dövlətlər tərəfindən şirnikləndirilən ermənilər hələ də Azərbaycan, Türkiyə və Gürcüstan torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq xülyasındadırlar.<br>Təcrübəkeçmədə əldə edilən nəticələr və gətirilən materiallar, bu materialların təhlilinin elmi və praktik əhəmiyyəti böyükdür.<br>Təcrübəkeçmə gedişində Başbakanlık Osmanlı Arxivindən 30-dan artıq arxiv sənədi toplanmışdır. Bu sənədlər Hattı Hümayun bölümündə yerləşdirilmiş və Osmanlıcadır.<br>Araşdırma gedişində aşağıdakı nəticələr əldə edilmişdir: 1829-1830-cu illərdə ermənilərin Osmanlı imperiyasından Şimali Azərbaycan torpaqlarına köçürülməsi ilə bağlı toplanmış materiallar göstərir ki, köç edən ermənilər əsasən Azərbaycan ərazisində yerləşdirilmişdir. Bu sənədlərdə Rusiyanın erməni məsələsi ilə əlaqədar diplomatik fəaliyyəti və həmçinin, Rusiyanın Osmanlı ermənilərinə göstərdiyi himayə də öz əksini tapmışdır.<br>Sənədlərin araşdırılması nəticəsində Rusiyanın Ərzurumu işğalı ərəfəsində ermənilərin yerli müsəlman əhaliyə etdikləri zülmlərdən qorxaraq Rusiyaya getdikləri və gedərkən bəzilərinin yolda peşman olaraq geri dönmələri haqqında məlumatlar da öz əksini tapmışdır.<br>Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində saxlanılan sənədlərin araşdırılması nəticəsində ermənilərin Cənubi Qafqaza gəlmə, daha doğrusu gətirilmə etnos olduğu, hazırda bu etnosun yaşadığı "Ermənistan Respublikası" adlanan ərazinin də həmçinin Azərbaycan torpağı olması bir daha öz təsdiqini tapır.<br>1829-1830-cu illərdə Rusiya imperiyası tərəfindən ermənilərin Osmanlı imperiyasından Şimali Azərbaycan torpaqlarına köçürülməsini əks etdirən Başbakanlıq Osmanlı arxivində qorunub saxlanılan sənədlərin tədqiqata cəlb edilməsinin nəticələrindən |

| | | |
|---|---|---|
| | | Azərbaycan tarixi üzrə dərslik və dərs vəsaiti tərtib edilməsində, həmçinin ali və orta ixtisas məktəblərində Azərbaycan tarixi fənninin tədrisində, Beynəlxalq münasibətlər, ermənişünaslıq kimi xüsusi ixtisas kurslarının oxunmasında istifadə oluna bilər.<br>Bundan əlavə, əldə olunan nəticələr Respublikada milli siyasətin hazırlanmasında, onun həyata keçirilməsində, eləcə də xarici siyasət kursunun həyata keçirilməsində də gərəkli ola bilər. |
| **7.** | *Təcrübəkeçmə zamanı istifadə olunmuş üsul və yanaşmalar* | Arxiv materiallarının müqayisəli təhlili; mənbələrə tənqidi yanaşma; mənbə materiallarının elmi analizi |
| **8.** | *Təcrübəkeçmə zamanı əldə olunmuş nəticələrin gözlənilən tətbiq sahələri (konkret olaraq qeyd etməli)* | Ümumi tarix, Azərbaycan tarixi, Beynəlxalq münasibətlər tarixi |

**Layihə rəhbərinin imzası** ____________

**Tarix** 04. X .2015